**5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür**

***Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.***

*Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Müəllim əməyi əsl vətənpərvərlik nümunəsidir

"Hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilir və onu qiymətləndirməlidir. Mən isə bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam." Bu xatırlamanı Prezident İlham Əliyev səsləndirib. Onun ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirdiyi kompleks tədbirlər, bu sahəni dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir.

Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Təsadüfi deyil ki, XXI əsrin əvvəllərindəki Azərbaycanda əsl təhsil bumu yaşanır. Son illərdə ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəb tikilib, əlavə korpuslar inşa olunub.

Sevindirici haldır ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir. Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə öz mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, onların əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni, müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Prezident İlham Əliyev deyir: "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər".

Təhsil işçilərinin əmək haqlarının artırılması, mükafatlandırılması, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar da onlar üçün böyük stimul olmaqla, pedaqoji kollektivlərin məsuliyyətini də artırır.




Pandemiya ilə bağlı müəllimlərimiz böyük çətinliklərlə qarşılaşsalar da, bu sınaqdan da uğurla çıxırlar. Onlayn dərslərin keçilməsi yeni proses olsa da , ötən il müəllimlərimiz bu prosesə qoşularaq, onu mükəmməl şəkildə mənimsəyə bilmişlər.

Azərbaycanın böyük müəllim ordusu var və onlar respublikamızın intellektual potensialının gücləndirilməsi yolunda yorulmadan fəaliyyət göstərirlər.

Bu gün Azərbaycan məktəblərində 144 mindən çox müəllim çalışır.

Azərbaycan müəllimlərinin XI qurultayında geniş məruzə ilə çıxış edən ulu öndər demişdir: "Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimlərdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi?" Ümummilli lider müəllimlərin əməkhaqlarının artırılması, onlara fəxri adların verilməsi ilə bağlı dəfələrlə sərəncamlar imzalamışdır.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev də milli təhsilin inkişafına, müəllimlərin sosial vəziyyətinin yaxşılaşmasına həmişə xüsusi qayğı ilə yanaşmışdır.

Məhz bu qayğının nəticəsidir ki, Azərbaycanda müəllimin nüfuzu ilbəil artır, güzəranı getdikcə yaxşılaşır. Hələ 2004-cü ildə cənab Prezidentimiz "2005–2008-ci illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi ilə bağlı sərəncam imzalamışdır. Bu gün Təhsil Nazirliyi müəllimlərin seçilməsi və işə təmin edilməsi sahəsində dünyada sınaqdan keçirilmiş mexanizmlərin tətbiqi istiqamətində bir sıra əhəmiyyətli addımlar atır.

Cəmiyyətdə belə bir fikir formalaşıb ki, müəllim əməyi əsl vətənpərvərlik nümunəsidir. Xalq arasında deyilir ki , müəllim dəyişəndə cəmiyyət də dəyişir. Söz yox ki, müəllim təhsildə əsas sima, ən nüfuzlu şəxsdir. Azərbaycan dövləti onların şərəfli əməyini həmişə yüksək qiymətləndirib.

Azərbaycanda müəllim kadrlarının hazırlanması və onların ixtisasının təkmilləşdirilməsi də həmişə diqqət mərkəzində olmuşdur. Bir neçə ali və orta ixtisas məktəbimiz müəllim kadrları hazırlamaq sahəsində böyük təcrübəyə malikdir. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və digər ali təhsil müəssisələrində yüksək ixtisaslı müəllim kadrları hazırlanır. Bir vaxtlar M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumu adlanan, hazırda Bakı Pedaqoji Kolleci adı ilə fəaliyyət göstərən təhsil ocağının bu sahədəki fəaliyyətini də xüsusi qeyd etmək lazımdır.

Müəllimlərin peşəkarlığının artırılması, təhsil sistemində dünya təcrübəsinə uyğun keyfiyyət dəyişikliklərinin aparılması istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Bu prosesdə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar, o cümlədən Britaniya Şurası, UNİSEF və digər qurumlarla Təhsil Nazirliyinin əməkdaşlığı xeyli fayda vermişdir. Belə ki, 12 mindən çox müəllim müasir təlim strategiyaları əsasında təşkil olunan treninqlərdən, öyrədici təlim kurslarından keçirilmişdir.

II Qarabağ müharibəsi başlayan gündən müəllimlərimiz də könüllü olaraq döyüşə qatıldılar. Şanlı qələbənin qazanılmasına onlar da öz töhfələrini verdilər. Bu müharibədə 700-dək təhsil işçisi qəhrəmanlıqla döyüşüb. Müharibə zamanı 20 nəfər təhsil işçisi şəhid olub.

Müəllimlər bu gün cəmiyyətimizin nüfuzlu şəxslərindən hesab olunurlar. Onlara xalq arasında hörmət və ehtiram var və gələcəkdə də belə olacaq. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. Amma cəmiyyət müəllimə borclu olduğu kimi, müəllim də cəmiyyət qarşısında öz borcunu, məsuliyyətini hiss etməlidir.

Heç şübhəsiz ki, müstəqil Azərbaycanımızın müəllimlər ordusu xalqımızın gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edəcək, xalqımıza layiq vətəndaşların yetişdirilməsində öz xidmətlərini əsirgəməyəcəklər. Bayramınız mübarək, əziz müəllimlər!

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***